yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur










2 İNSAN GÖRDÜYÜNÜ GÖTÜRƏR

3 SƏFİRLİK OYUNU

4 PROFESSOR ƏZİZ ŞƏRİFİN GÜRCÜSTAN DEMOKRATİK RESPUBLİKASINDA (1918-1921) İCTİMAİ-SİYASİ FƏALİYYƏTİ

6 İSLAM SEVGİ DİNİDİR



HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

31 MAY 2018-Cİ İL

№008 (67)


## GÜRCÜSTAN PARLAMENTİNİN SƏDRİ TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ İLƏ GÖRÜŞÜB



Gürcüstan Parlamentinin sədri İrakli Kobaxidze İstanbulda baş tutan Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının 25-ci illiyinə həsr olunmuş parlament sədrlərinin sammitində iştirak edib və sammit çərçivəsində Türkiyə Böyük Millət Məclisinin sədri İsmail Kahramanla görüşüb. Tərəflər ikitərəfli strateji və tərəfdaşlıq əlaqələrini, müxtəlif istiqamətlərdə əməkdaşlığın daha da möhkəmləndirilməsini müzakirə ediblər. Tərəflərin qiymətləndirməsinə əsasən, iki ölkə arasında siyasi, iqtisadi, mədəni və turizm istiqamətində əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün vacib potensialı var.

İrakli Kobaxidze və İsmail Kahramanın qiymətləndirməsinə görə, Gürcüstan və Türkiyə strateji əməkdaşlığı regionun təhlükəsizliyi və stabilliyi üçün böyük əhəmiyyət daşıyır. İ. Kobaxidze və İ. Kahraman ikitərəfli münasibətlərin inkişafında parlament əməkdaşlığının xüsusi rolu olduğunu qeyd ediblər və mübadilə səfərlərinə dair razılığa gəliblər.

## MALİYYƏ NAZİRİ: "BANK VƏ MALİYYƏ SEKTORUNDA YENİ HÜQUQİ OYUN QAYDALARI YARANIR"



Bank və maliyyə sektorunda yeni hüquqi oyun qaydaları yaranır. Bu haqda maliyyə naziri Mamuka Baxtadze hökumət iclasında təqdim olunan qanunvericilik dəyişiklikləri haqda söhbəti zaman bildirib.

Onun sözlərinə görə, qanunverici təşəbbüs bir neçə vacib prinsipi nəzərdə tutur.

"Bütün kredit verənlərə istifadəçidən girov götürdüyü əşyadan başqa mülk tələb etmək qadağan olunacaq. Lombard və kredit verənlərə avtomobil və daşınmaz əmlak girov qoymaq qadağan olunacaq. Kreditin illik effektli faizi qüvvədə olan 100%-in əvəzinə 50%-ə qədər azalacaq. Bu gün mövcud olan məsuliyyətsiz və ədalətsiz cərimələrin təyin edilmə sistemi ləğv olunacaq və bütün kredit verənlərə cəriməni kreditin ümumi dəyərindən hesablamaq qadağan olunacaq. Ən əsası yeni, ədalətli oyun qaydaları ümumi maliyyə sektoruna da aid olacaq. Burada bank sektoru, mikromaliyyə təşkilatları, lombardlar və özəl kredit verənlər nəzərdə tutulur.

Qeyd olunan təşəbbüs qeyd olunan sektora maksimum dərəcədə şəffaflıq daxil etməyi nəzərdə tutur. Lombardlara müddət veriləcək ki, öz işlərini qaydaya salsınlar və inkişaf etdirsinlər, kriminal halların istisna olunması üçün bütün girov qoyulmuş əşyaların qəbul ediləcəyi vahid proqramla təmin etmə yaratsınlar", – bildirib maliyyə naziri Mamuka Baxtadze.

## BAŞ NAZİR GİORGİ KVİRİKAŞVİLİNİN İLK RESPUBLİKANIN 100 İLLİYİ MÜNASİBƏTİ İLƏ "FİRAVANLIQ ÜÇÜN ƏMƏKDAŞLIQ – GƏLƏCƏK YÜZİLLİYİN STRATEGİYASI" ADLI DƏİRMİ MASADA ÇIXIŞI



Hörmətli qonaqlar, bir daha sizi salamlayıram.

Bizim üçün bu gün Gürcüstanda olmağınız böyük fəxrdir. Hamımız birgə bizim ölkənin demokratik respublika olaraq əsasının qoyulmasının 100 illik yubileyini qeyd edirik.

Bu tarix və bu il yalnız Gürcüstan üçün vacib deyil, bizimlə birlikdə yenə bir neçə ölkə öz müstəqilliyinin 100 illik yubileyini qeyd edir.

Keçən əsrlərdə olduğu kimi sonuncu 100 il də Gürcüstan üçün asan olmayıb, çətinliklərlə, azadlıq üçün mübarizələrlə dolu olub. Ölkəmiz böyük qurban verməklə 1991-ci ilin 31 mart tarixində müstəqilliyini bərpa edə bildi və sonradan artıq 26 may tarixində biz Avropa və Avroatlantikaya ölkəmizin inteqrasiyasını nəzərdə tutan, bütün Gürcüstan miqyasında beynəlxalq şəkildə tanınmış sərhədlər çərçivəsində ölkəmizin tamamilə yeni strategiyasını təsdiqlədik.

Bizim ölkənin tarixi yaddaşında əlbəttə ki, bir çox mübarizələr qalıb. Ancaq 1918-ci ilin 26 may tarixi xüsusi idi. Həmin gün 100 il bundan əvvəl Gürcüstanın ilk demokratik respublikasının hökumət rəhbəri Noe Jordaniya öz çıxışında qeyd edirdi:

"26 may aktı təsadüfi, hansısa şəxsin, qrupun və ya partiyanın düşündüyü akt deyil. Xeyr, cənablar. Bu akt tarixi vacibatdan və xalqın ürəyindən gəlirdi. Bu aktla Gürcüstan məhv olmaqdan xilas oldu... Bu gün biz vaistəçi olmadan Avropa xalqlarının ailəsinə daxil ola bilərik. Bu gün biz artıq bu yoldayıq. Biz istəyimizdən dönməyəcəyik".

Çox əhəmiyyətli və həyəcanlı sözlərdir. Həqiqətən də hələ 100 il bundan əvvəl Gürcüstanın Avropaya tələsməsini təsvir edir. Biz həqiqətən də qürur duyuruq ki, Gürcüstan bunu üç il ərzində bacardı. Avropalı, demokratik prinsiplərə əsaslanan Konstitusiya əldə etdi. Cinsinə, milliyyətinə, dini və sosial durumuna baxmayaraq bütün vətəndaşlara universal seçki səsi verən və bunun əsasında ilk parlament yaranan və eləcə də öz sərhədlərində bütün vətəndaşların mülki və siyasi hüquqlarını bərabər təmin edən Parlamentin əsasını qoydu.

(davamı səhifə 2-də)

## QLEN HOVARD: "BTQ İLƏ HƏRBİ YÜKLƏR DAŞINACAQ, TÜRKİYƏ ARTIQ BUNA RAZILIQ VERİB"

"ABŞ Bakı-Tbilisi-Qars dəmir yolu xəttindən hərbi yüklərin daşınması üçün istifadə etməkdə maraqlıdır". Bunu ABŞ-ın Ceymstaun Fondunun direktoru Qlen Hovard Tbilisidə keçirilən V Cənubi Qafqaz Təhlükəsizlik Forumunda çıxışında deyib.

O bildirib ki, BTQ-nin bu məqsədlə istifadə olunması təklifləri müzakirə olunur və Türkiyə buna ilkin razılıq ifadə edib.

Bölgədə həyata keçirilən iqtisadi layihələrin əhəmiyyətindən danışan Q. Hovard TANAP layihəsinin regiona olduqca böyük təsirinin olacağını da qeyd edib.



# İNSAN GÖRDÜYÜNÜ GÖTÜRƏR

**Azər Musaoğlu**
*azermusaoghlu@gmail.com*

Xalqın maariflənməsində xüsusi rolu olmuş "Molla Nəsrəddin" jurnalının 9 mart 1921-ci il buraxılışında "Cavanlara" başlığı altında felyetonunda rəhmətlik Mirzə Cəlil yazırdı: "Bircə ümidim cavanlara idi. Həmişə və hər bir məkanda vətən məhz cavanlardan öz nicatını gözləyib. Mən də bu səbəbdən məhz cavanlarımıza ümid bağlayıram...".

Sonradan ümid bağladığı bu cavanları küçədə səhərə kimi qumar oynamaqdan və içkidən gözləri qızarmış görən Mirzə Cəlil əlavə edir: "...Bəli, dəxi sözüm qurtardı. Ancaq cavanlardan bir müxtəsər giley-güzar etmək istədim; istədim bunu deyəm ki, hər bir məmləkətdə millətin ümidvarlığı məhz cavanlar olublar".

Bəli, 1921-ci ildə Mirzə Cəlili incidən bu ağrılı hal üzərindən illər ötsə də təəssüf ki, bu gün öz formasını daha da kəskinləşdirərək davam etməkdədir. Bu gün cavanlar spirtli içkilərə, qumara və narkotik maddələrə qurşanaraq, öz sağlamlıqlarına, ailələrinə və nəhayət üzv olduqları cəmiyyətə də ciddi ziyan vurmaqdadırlar.

Addımbaşı fəaliyyət göstərən totalizatorların, poker klubların, çayxanaların qarşısına çoxlu sayda toplaşan gənclərdən, yeməkxana və kafelərdə adı yadından çıxana qədər içki içib, sonra da küçədə ədəbsiz söyüşlər söyən, yoldan ötənə sataşan "cavanlardan" yazıq Vətən hansı nicatı gözləyə bilər?! Bu cür "cavanlardan" hansı vətənpərvərliyi, hansı millətçiliyi, dövlətçiliyi ummaq olar?!

Evinin əşyalarını oğurlayıb satan, lombarda qoyub pulunu içkiyə, narkotikə, qumara verən bu "cavanlar" ailəsinin dağılmasını, valideynlərinin gözüyaşlı qalmasını zərrə qədər də düşünməmdikləri, heyfislənmədikləri kimi, sabah millətini də, Vətənini də "uf" – demədən satar, lombarda qoyar, qumarda uduzar.

Gənclərin vaxtlarını səmərəli keçirmələri üçün ideal olmasa da müəyyən şərait var. Bir çox yerlərdə futbol meydançaları, idman zalları, kitabxanalar, sənət dərnəkləri, dil kursları və digər faydalı yerlər fəaliyyət göstərməkdədir.

Bəs görəsən gənclərin əksəriyyəti nəyə görə məhz səhv, yanlış yolu seçirlər? Bu yolu onlara kim göstərir? Bu sualların cavabını axtarsaq, bir ucu yenə ailə və məktəblərdə verilən tərbiyəyə gedib çıxacaq.

İndiyə kimi də məktəblərdə bəzi müəllimlərimiz dinimizin gözəl əxlaqını öyrətmək əvəzinə, ateizmi təbliğ edirlər. Müəllimlər öz şagirdləri ilə yanaşı eyni çayxanalarda çay içib, domino oynayır, eyni qumarxanalarda oyunlara pul qoyurlar. Toylarda eyni masada müəllimlə şagird arağ stəkanı döyüşdürüb sağlıq deyirlər. Sonra da şikayətlənirlər ki, şagirdlər müəllimləri saymır, tərbiyəsiz böyüyür. Bəzi valideynlər övladının stəkan döyüşdürüb sağlıq deməsi ilə fəxr edir. Uşaqlarını məktəbdən yayındıraraq "oxumaq nəyinə lazım, oxuyub alimmi olacaq, pul qazanmaq lazımdır" – deyərək bazara, alverə cəlb edirlər. Namaz qılıb, oruc tutan, kitab oxuyan əxlaqlı bir gəncə digərləri pis baxır, bir yerdə olanda kinayəli sözlərlə onu da öz sıralarına qatmağa çalışırlar və s.

Deyirlər, insan gördüyünü götürər. Bir zamanlar uşaq olan indiki gənclər öz dövrünün gənclərindən gördülər və götürdülər. İndi isə uşaqlar bu gənclərdə gördüklərini götürürlər. Bəs görəsən, belə davam edərsə, bu görüb-götürmələrin axırı necə olacaq?!.

Ümidimiz vətənini, millətini sevən təhsilli, ağıllı, əxlaqlı gənclərədir. Və bu cür cavanlar böyük Mirzə Cəlilin sönməkdə olan ümidini yenidən alovlandırmalı, millətimiz, Vətənimiz üçün çalışmalıdırlar. Ən azından isə bizdən sonrakı nəsillərə layiqli örnək olmalıyıq.

# BAŞ NAZİR GİORGİ KVİRİKAŞVİLİNİN İLK RESPUBLİKANIN 100 İLLİYİ MÜNASİBƏTİ İLƏ "FİRAVANLIQ ÜÇÜN ƏMƏKDAŞLIQ – GƏLƏCƏK YÜZİLLİYİN STRATEGİYASI" ADLI DƏİRMİ MASADA ÇIXIŞI

**(əvvəli səhifə 1-də)** O zaman gürcü cəmiyyəti ahəngli şəkildə Avropanın demokratik dəyərlərinə uyğunlaşdı və Sovet İttifaqının işğalına baxmayaraq uzun illər ərzində bu dəyərlərin daşıyıcısı olaraq qaldı.

Bu gün də Gürcüstan Avropa dəyərlərinə sadiqdir. Demokratiyanın möhkəmləndirilməsi, insan haqlarının müdafiəsinin, qanunun aliliyinin, yaxşı idarəçiliyin, şəffaflıq və ya iqtisadiyyatın reformaları baxımından Gürcüstan bu gün şərq tərəfdaşlığı ailəsində liderdir.

Ölkə xarici siyasətin strateji məqsədlərə nail olmaq üçün gedişatına davam edir. Bu, Gürcüstanın NATO-ya və Avropa İttifaqına üzvlük adlanır. Bu məqsədlər ölkənin real transformasiyasının əsası oldu. Avropa və Avroatlantika strukturlarına inteqrasiya prosesi demək olar ki, bütün sahələrdə inkişafa dəstək oldu və müvafiq olaraq bu yalnız bizim ölkənin xarici siyasətinin prioriteti deyil. Bu prioritetlər ümumlikdə bu gün bizim ölkənin davamlı şəkildə həyata keçirdiyi reformaların təbiətini müəyyən etdi.

Dünya miqyasında bir çox problemlərin olduğu şəraitdə qlobal təhlükəsizlik, terrorla mübarizə və regionumuzdakı bir çox problemlərin, 21-ci əsrin beynəlxalq gün qrafikinin əsas məsələsinə çevrilməsi olduqca vacibdir. Gürcüstan bu problemlərlə mübarizədə dünyanın sivil dostluq dəyərlərinin üzvüdür. Əlbəttə bu problemlərlə mübarizə prosesində Gürcüstan da son illər ərzində böyük qurbanlar verdi.

Bizim ölkənin 20 faizi bu gün Rusiya Federasiyası tərəfindən işğal olunub. Bizim gündəlik həyatımızda çətinliklərimiz var. 2008-ci il Rusiya-Gürcüstan müharibəsi və atəşi dayandırmağa dair razılığa gəldikdən 10 il sonra, çox təəssüf ki, Rusiya yenə də razılıqla götürülmüş öhdəlikləri yerinə yetirmir və bizim ölkənin ayrılmaz hissələrinin – Abxaziya və Tsxinvali regionlarının faktiki aneksiyasına doğru addım atır.

Təxribatlara baxmayaraq Gürcüstan beynəlxalq dostluğun dəstəyi ilə konfliktləri sülh yolu ilə həll etmək siyasətini həyata keçirməyə davam edir. Bizim cəmiyyət və bizim hakimiyyət bunu çox dəyərləndirir. İnanırıq ki, möhkəm mövqe və birgə gücümüzlə ardıcıl yanaşma ilə sülh yolu ilə ölkəmizi birləşdirməyi bacaracağıq. Əlbəttə, bu yolda iqtisadi inkişaf, iqtisadi reformalar, iqtisadi firavanlığın ölkəmizdə günü-gündən yaradılması çox vacibdir və biz bunu gündəlik rejimdə bir çox istiqamətlərdə davamlı olaraq həyata keçiririk.

Biz gələcəkdə də 21-ci əsrin əsas problemlərinə, terrorizmə, radikalizmə qarşı mübarizədə fəal olacağıq. Belə çətinliklərə qalib gəlmək yalnız beynəlxalq dostluqların birgə gücü ilə nail olmaq mümkündür.

Düşünürük ki, bu yubileyi çox layiqli şəkildə qarşılayırıq. 2018-ci ili qoşulmaq və dialoq ili elan edirik. Əhali gedən proseslərə aktiv və yaradıcı şəkildə qoşulsun.

Əhalinin məlumtlandırılması və qoşulması, xüsusilə bu gün bütün dünyada gedən müasir texnologiyaların və məlumat inqilabı şərtlərində olduqca əhəmiyyətlidir. Məhz bundan dolayı, Gürcüstan üçün dünyanın sivilizasiya aləminə inteqrasiyası, konkret olaraq Avropa İttifaqı ilə sonrakı yaxınlaşma, NATO-ya üzvlük, tərəfdaşlarımızla ikitərəfli əlaqələr, ABŞ-la Gürcüstan üçün olduqca vacib olan ikitərəfli strateji münasibətlər əhəmiyyətlidir. Qonşularla strateji münasibətlərimiz Gürcüstanın strateji vəziyyətindən və yerləşməsindən dolayı götürdüyü öhdəliklərin yerinə yetirilməsi üçün vacibdir.

Ümid edirik ki, 2021-ci ildə Sovet işğalı gününün 100 ili tamam olanda Gürcüstan bu tarixi Şimali Atlantika Alyansının həqiqi üzvü statusu ilə qarşılayacaq. Biz çox ümid edirik ki, dünyanın sivilizasiya olmuş dostluğu, konkret olaraq Şimali Atlantika Alyansı güc əldə edəcək ki, bizim regionda və daha geniş miqyasda əhəmiyyət daşıyan təhlükəsizlik üçün vacib olan qərarların konsolidasiyasını həyata keçirsin. Gürcüstan bu çətinliyə hazırdır, Gürcüstan hər gün çalışır ki, Avropa ailəsinin, həmçinin Avroatlantika dostluğunun həqiqi üzvü olsun.

Bu gün burada olduğunuz üçün çox sağ olun, dostlar. Ölkəmizin əhalisinin sevincini bölüşməyiniz bizim üçün əhəmiyyətlidir. Gördünüz ki, bu günün Gürcüstanda qeyd olunmasının nə qədər geniş miqyası var. Hər regionda, hər şəhərdə müvafiq tədbirlər planlaşdırılıb. İstiyə və biraz çətin dözüləcək hava şəraitlərinə baxmayaraq bizimlə olmağınız bizi çox sevindirir.

**Gürcü dilindən tərcümə: Aynurə Əliyeva**

# VAZİANİ HƏRBİ BAZASINDA NATO STANDARTLARINA UYĞUN HƏRBİ HAZIRLIQ MƏRKƏZİ AÇILIB

Gürcüstanın Vaziani hərbi bazasında NATO standartlarına uyğun hərbi hazırlıq mərkəzi açılıb.

Mərkəzin açılması ilə Gürcüstan və ABŞ arasında 3 illik müdafiə hazırlığı proqramına start verilib.

Açılış mərasimində çıxış edən Gürcüstanın müdafiə naziri Levan İzoriya açılış gününü tarixi gün adlandırıb.

"Gürcüstan və ABŞ arasında hərbi sahədə əməkdaşlıq keyfiyyət baxımından yeni mərhələyə keçir. İki ölkə arasında strateji tərəfdaşlıq daha da güclənir. Bu proqram çərçivəsində 9 piyada batalyonunun NATO standartlarına uyğun hazırlığı həyata keçiriləcək. Mərkəzdə



hərbçilərin hazırlığında amerikalı təlimçilər iştirak edəcək", - deyə Levan İzoriya bildirib.

Mərkəzin açılışında NATO-nun Avropadakı qüvvələrinin komandanı, general Kertis Skaparotti də iştirak edib.

## ƏDLİYYƏ NAZİRİNİN TƏŞƏBBÜSÜ İLƏ YENİ DOĞULAN KÖRPƏLƏRƏ VERİLƏCƏK HƏDİYYƏ PAKETİ YAXŞILAŞDIRILIR

“Xoş gəldin” sosial layihəsinin hədiyyə paketi yaxşılaşdırılır. Ədliyyə nazirinin təşəbbüsü ilə proqramın benefisiarı (Benefisiar - müəyyən məbləğdə pulu almaq üçün hesablaşma sənədində göstərilmiş hüquqi və ya fiziki şəxsdir) sosial müdafiəsiz ailələrdə doğulan körpələrin valideynləridir. Onlar körpənin doğum şəhadətnaməsi ilə birgə, körpə üçün geyim və higienik vasitələrdən əlavə, indi artıq uşağa qulluq və qida məhsulları üçün 20 larilik vauçer və 50%-lik endirim kartı da əldə edəcəklər. Vauçerlərdən “Pharmadepot” apteklərində istifadə etmək mümkün olacaq. Körpənin valideynləri 20 lari çərçivəsində bez və ya uşaq üçün lazım olan başqa əşyaları pulsuz alacaqlar. 50%-lik endirim kartı ilə isə müxtəlif məhsulları yarı qiymətə ala biləcəklər.



Hədiyyə paketi Ədliyyə Evi və “Pharmadepot” şirkəti arasında imzalanmış qarşılıqlı əməkdaşlıq memorandumu çərçivəsində həyata keçirilir.

“Xoş gəldin” layihəsi Gürcüstan miqyasında Ədliyyə Nazirliyinin təşəbbüsü ilə 2016-cı ilin 17 oktyabr tarixindən Ədliyyə Evlərinin bütün filiallarında həyata keçirilir. Layihənin gedişatı dövründə benefisiar olan valideynlərlə iki dəfə sorğu aparılır. Paketə nəyin əlavə edilməsini istəyərdiniz sualına sorğuda iştirak edənlərin əksəriyyəti bezləri, əmzik, uşaq yağları və süni qidalara üstünlük veriblər.

“Məhz valideynlərin istəyini nəzərə alaraq Ədliyyə Evi özəl şirkətlərlə danışıqlar apardı. Müvafiq razılıq isə yalnız “Pharmadepot” şirkəti ilə baş tutdu. Bunun üçün “Pharmadepot”a öz adımızdan, körpələrin və valideynlərin adından təşəkkür edirəm. Ümid edirəm ki, gələcəkdə başqa şirkətlər də oxşar sosial məsuliyyət götürəcəklər və ehtiyacı olan ailələrə körpə doğulan kimi dəstək göstərəcəklər”, – bildirib ədliyyə naziri Tea Tsulukiani.

Hədiyyə paketinin rəngarəng edilməsi nəticəsində valideynlər uşaqları üçün hansı əşyaların prioritetli olmasını özləri müəyyən edəcəklər.

“Xoş gəldin” layihəsi çərçivəsində bu günə qədər hədiyyə paketi 4130 nəfərə verilib. Tədqiqata əsasən, proqram benefisiarlarının 68.35%-i hədiyyə paketindən razı qalıb, 6,84%-i hesab edir ki, paketin daha da təkmilləşdirilməsinə ehtiyac yoxdur, 24,81%-i isə uşaq higienası və körpəyə qulluq məhsullarının əlavə olunması istəklərini bildiriblər.

## DAXİLİ İŞLƏR NAZİRLİYİNİN AİLƏDƏ VƏ QADINA QARŞI ZORAKILIQ HAQQINDA QANUNLAYİHƏSİNİ HÖKUMƏT TƏSDİQLƏYİB

Gürcüstan hökuməti Daxili İşlər Nazirliyi tərəfindən ailə və qadına qarşı zorakılıq haqqında hazırladığı qanunlayihəni təsdiqləyib.



Qanunlayihənin yaradılması məqsədi ailə cinayəti, ailədə və qadına qarşı zorakılığa qarşı mübarizənin effektinin artırılmasıdır.

Qeyd olunan qanunlayihə əsasında, İnzibati Xətalar və Cinayət Məcəlləsində aşağıdakı dəyişikliklər həyata keçirilib:

- Həbs və müdafiə orderi şərtlərinin pozulmasının ilkin halında şəxs cinayət məsuliyyətinə cəlb olunur. Qanunun bugünkü qüvvədə olan nəşrinə əsasən, şərtləri pozan ilkin halda inzibati, ikinci dəfə təkrar olduğu halda cinayət məsuliyyətinə cəlb olunur;
- Ailə cinayəti qrupunda birləşmiş, hər hansı zorakı cinayəti təkrar törədən şəxslərə qarşı sanksiyalar ciddiləşir. Keçmişdə ailədə zorakılıq üçün mühakimə olunmuş şəxs tərəfindən qeyd olunan cinayətin təkrar olunması dəfələrlə törədilmiş ailə cinayəti olaraq qiymətləndirilir və zorakı şəxs ilkin halda olduqca ciddi şəkildə cəzalandırılacaq;
- Gender işarəsi ilə qətl, intihar halına qədər aparıb çıxarmaq, sağlamlığa ağır və yetərincə zərər vurmaq ağır hal olaraq nəzərdə tutulub və bu növ diskriminasiya motivli cinayəti törədən şəxslərə qarşı sanksiyalar ciddiləşir;
- Həmçinin ailədə zorakılıq üçün (126-cı maddə) sanksiya ciddiləşir. Bu gün qüvvədə olan cəza əvəzinə - 1 ilə qədər azadlıqdan məhrumetmə, cinayət törədən şəxs 2 il müddətinə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq;
- Ailə üzvünün öldürülməsi ağır hal kimi dəyərləndiriləcək.

Qanunlayihə müzakirə üçün Gürcüstan Parlamentinə göndərilib.

## TOYUQ ƏTİNİN PAKETLƏŞDİRİLMƏSİ MƏCBURİ OLACAQ

Gürcüstan hökumətinin “Ət məhsullarının xüsusi higiena qaydaları haqqında” qanunvericiliyində dəyişiklik edilib. Dəyişikliyə əsasən, avqust ayının 1-dən dondurulmuş toyuq ətinin paketləşdirilməsi məcburi olacaq.

Həmçinin paketləşdirilmiş toyuq ətinin və ya toyuğun müxtəlif hissələrinin üstündə qanunvericiliklə müəyyən edilən etiket olmalıdır.

## SƏFİRLİK OYUNU



Sahib Mustafa
*sahib1975.sm@gmail.com*

Cari il mayın 14-də İsrail dövlətinin yaranmasının 70-ci ildönümündə ABŞ-ın rəsmi olaraq bu ölkədəki səfirlik heyyətini Tel-Əvivdən Qüds şəhərinə köçürülmə prossesi qanlı olaylarla müşayiət olundu. Dinc fələstinli ərəb etirazçılarına qarşı İsrail polis-ordusu gerçək mərmilərdən istifadə edərək 62 fələstinlini qətlə yetirdi və 2700-dən çoxu isə müxtəlif dərəcəli xəsarətlər aldı. Baş vermiş bu hadisə müasir bəşər tarixində ABŞ-İsrail cütlüyü adına yazılacaq bir insanlıq suçu kimi yadda qalacaqdır. Bəs sivil etiraz hüquqlarını ayaqlar altına ataraq ABŞ-ın “eşşək inadı” ilə diplomatik korpusunu “de-yure” paytaxt Tel-Əvivdən Qüdsə köçürülməsinin arxasında nələr gizlənir?

İlk olaraq məsələyə Ərəb-İsrail münaqişəsinin sülh yolu ilə tənzimlənmə modelinin axsaqlığı kontekstində yanaşmaq lazımdır. Prezident Trampın verdiyi tarixi səhv qərar konfliktin həllini bundan sonra daha da çıxılmaza soxacaqdır. Çünki adıgedən münaqişənin tənzimlənməsində ABŞ sözdə mediator mövqeyindən çıxış edirdi. İsrail dövlətinə himayədarlıq edən ABŞ isə vasitəçilik missiyasının üzərindən xətt çəkərək münaqişə iştirakçısına çevrildi. Qüdsün statusu Ərəb-İsrail münaqişəsinin sülh yolu ilə həll olunmasından sonra münaqişə tərəflərinin qarşılıqlı anlaşma yolu ilə aydınlıq gətiriləcəyi variantını dünya birliyi dəstəkləməkdədir. Deməк ki, bu qayda ABŞ-İsrail tandemi üçün işləmir - “güclüsənsə, haqlısan”. Digər tərəfdən, Tramp seçkiqabağı verdiyi vədləri ard-arda yerinə yetirmə illüziyasını da amerikan ictimaiətinə sırımaq istəyir. ABŞ prezidenitinin baş məsləhətçisi və kürəkəni Kuşnerin milliyyətcə ortodoksal yəhudi olması faktorunu da yaddan çıxarmaq lazım deyil. Trampın qızı İvanki də Kuşnerlə evlənməmişdən öncə yəhudi dinini qəbul etmə faktı Trampın məkirli qərarında önəmli faktor kimi dəyərləndirilməlidir.

Ərəb-İsrail münaqişəsinin ən problemli məqamı Qüdsün statusu məsələsidir. Şəhər hər üç dünya dini üçün müqəddəs şəhər hesab edilir. 1967-ci il müharibəsində İsrail ordusu şəhərin şərq hissəsini işğal edərək onu İsrail dövlətinin “vahid, bölünməz və əbədi” paytaxtı elan etmişdir. Halbuki, Qüds tərəflər arasında əsas mübahisə mənbəyi olduğu üçün şəhər birbaşa BMT-nin qəyyumluğuna verilmişdir. Ərəblərin payına düşən Fələstin torpaqları və Qüdsün sionist yəhudilər tərəfindən mərhələli işğalına BMT-nin özünün göz yumması dünyanın ən çəkili təşkilatının başda ABŞ olmaqla hegemon dövlətlərin əlində oyuncağa çevrildiyinin bariz nümunəsidir.

ABŞ-ın diplomatik korpusunun Qüdsə köçürülməsi və fələstinli ərəblərin kütləvi qırğınına ən böyük etirazı hər zaman olduğu kimi bu dəfə də Türkiyə verdi. Prezident Ərdoğanın təşəbbüsü ilə İstanbulda toplaşan İslam ölkələri sammitində önəmli qərarlar alındı. Lakin Vaşinqtonun əlində “oyuncağa” çevrilən əksər ərəb ölkələri tərəfindən gerçəkdə hansı tutarlı addımlar atılacağı şübhə doğurur. Artıq İordaniya İordan çayının qərb sahilini İsrailə güzəştə gedərək bu ərazilərə iddia etmədiyini vurğulayır. Müsəlman ölkələri arasında ideoloji birliyin olmaması bölgədə “ovuç içi” qədər İsrailin işinə yarayır. Səudiyyə Ərəbistanının İslam dünyasında liderlik uğrunda İranla girdiyi mübarizədə İsraillə əməkdaşlıq etməsi, Misir isə baş vermiş son böhranın daha da dərinləşməməsi üçün fələstinliləri geri addım atmağa çağırması ərəblər adına utanclıq simvolu hesab edilməlidir. ABŞ səfirliyinin Qüdsə köçürülməsi müsəlmanlar üçün müqəddəs Ramazan ayının başlanğıcına təsadüf etməsi ayrıca məna daşımalıdır.

Son hadisələrdən sonra Fələstin-İsrail münaqişəsinin sülh yolu ilə tənzimlənəcəyinə ümid etmək belə normal insan zəkasına təhqir olardı. 70 il davam edən İsrail işğalına ABŞ-ın izdivac verməsi ilə sülhün əldə edilməsinə olan kiçicik güman da “təcavüzə” məruz qaldı.

Gürcüstan Demokratik Respublikası-100

# PROFESSOR ƏZİZ ŞƏRİFİN GÜRCÜSTAN DEMOKRATİK RESPUBLİKASINDA (1918-1921) İCTİMAİ-SİYASİ FƏALİYYƏTİ



Əziz Şərif

**1895-ci ildə Naxçıvanda dünyaya qədəm basmış və bu şəhərdə ibtidai təhsil almış görkəmli ədəbiyyatşünas-alim, tənqidçi, tərcüməçi Əziz Şərifin (Əziz Şərifov, Əziz Qurbanəli oğlu Şərifzadə) ömrünün gənclik dövrü əsasən Tiflislə bağlı olur. O, orta təhsilini Tiflisdə başa vurub, 1915-ci ildə ali təhsil almaq üçün Moskva şəhərinə yollanır. Moskva Kommersiya İnstitutuna qəbul olunsa da, 1917-ci il Oktyabr çevrilişindən sonra – 1918-ci ilin yanvar ayında yenidən Tiflisə qayıdır və burada aktiv siyasi-ictimai həyata atılaraq "Hümmət" Sosial-Demokrat Müsəlman Təşkilatının ən fəal üzvlərindən biri olur.**

Gürcüstan sosial-demokratlarının aparıcı mətbu orqanı olan "Ertoba" ("Birlik") qəzetinin 1918-ci il 7 fevral tarixli sayında yayımlanan məlumatından bəlli olur ki, Rusiya Sosial-Demokrat Partiyasının Cənubi Qafqaz təşkilatının VIII qurultayında Əziz Şərif də çıxış edənlər arasında olur. Öz nitqində o, tədbir iştirakçılarını müsəlman əhalinin bəylərin tərəfini saxlamadığına əmin edərək deyir: "Əgər "Müsavat" seçkilərdə çox səs toplayıbsa, bu, seçkilərin qeyri-normal şəraitdə keçməsinin nəticəsidir. İşləmək lazımdır və müsəlman əhali bizim tərəfimizə keçəcəkdir".

26 may 1918-ci ildə müstəqilliyini elan etmiş Gürcüstan Demokratik Respublikasının (GDR) ilk ali qanunverici orqanı olan Milli Şura qəbul etdiyi 13 sentyabr 1918-ci il tarixli qanunla öz tərkibində etnik azlıqların nümayəndələrinə saylarına uyğun kvotalar ayırır. Bu qanuna əsasən, Əziz Şərif görkəmli yazıçı və diplomat, Gürcüstan Müsəlmanları Milli Şurasının sədri Əbdürrəhim bəy Haqverdiyev, müəllim Mirzə Hüseyn Həsənzadə və sol radikal sosialistlərin liderlərindən Əliheydər Qarayev ilə birlikdə 1918-ci ilin oktyabr ayında artıq rəsmən parlament adlandırılan Gürcüstan Milli Şurasında ölkə azərbaycanlılarını təmsil etmək hüququnu əldə edir.

Parlament iclaslarının stenoqram yazılarından Ə.Şərifin müəyyən məsələlərə dair müzakirələrdə fəal iştirak etdiyini görmək mümkündür.

Parlamentin 15 oktyabr tarixli iclasında "Dövlət dili haqqında" Qanunun müzakirəsi zamanı sədr Ekvtime Takaişvilidən söz istəyən Ə.Şərif gürcü dilini sərbəst bilmədiyinə görə üzrxahlıq edərək həm özünün, həm də müsəlman yoldaşlarının çıxışları zamanı parlamentin bütün üzvlərinin başa düşdüyü rus dilindən istifadə etməli olacaqlarını qeyd edir və müsəlman deputatların adından aşağıdakı bəyanatı səsləndirir:

"Biz, sizinlə eyni mühitdə olan Gürcüstan müsəlmanlarının nümayəndələri ümid edirik ki, xalqımızın psixologiyasını və istəklərini bilməklə müsəlmanlara aid olan məsələlərdə sizin çətin işinizi asanlaşdıra bilərik. Hesab edirik ki, bizim xalqların dostluğu və qardaşlığı haqqında danışmaq ziyadədir, çünki onların bir-birinə münasibəti hamıya yaxşı bəllidir.



**Əziz Şərif və İsmayıl Həqqi M.F.Axundzadənin məzarı üstə (1936-cı il)**

Yalnız xarici qüvvələrin deyil, həmçinin, öz aralarından çıxmış xalq düşmənlərinin zərbələrini üzərində hiss edən müsəlman demokratiyası indi dərindən nəfəs alacaq, azadlığın gözəlliyini və dinc əməyi hiss edəcək və onda, inanın, onu müstəqil Gürcüstandan aralaya biləcək elə bir güc olmayacaq (alqışlar). Bizə azadlıq bəxş edən böyük rus inqilabı ağır, az qala ölümcül böhran dövrünü yaşayır və onun nailiyyətlərinin – azadlıq və bərabərliyin saxlandığı, dostluğun, birliyin mövcud olduğu bir guşə varsa – bu, kiçik Gürcüstandır (alqışlar). Biz, Gürcüstan müsəlmanlarının nümayəndələri bu nailiyyətləri bütün mümkün qüvvələrimizlə möhkəmləndirəcəyik və istər xarici, istərsə də daxili düşmənlərdən qoruyacağıq.

Və bilin, bu gənc dövləti hansı sınaqların gözləməsindən və hansı təhlükələrin təhdid etməsindən asılı olmayaraq biz cəsarətlə, davamlı olaraq sizinlə çiyin-çiyinə addımlayacağıq və həm sevincinizi, həm də gələcəkdə mümkün kədərinizi qardaşcasına bölüşəcəyik (alqışlar). Gürcüstan parlamentinin üzvü olan vətəndaşlar, sizi salamlayaraq, sizin simanızda azadlıqsevər gürcü xalqına atəşin salamlar və səmimi arzularımı göndərirəm".

Ə.Şərif bu çıxışına başlayarkən onun rus dilində olmasına etiraz əlaməti olaraq milli-demokratlar nümayişkaranə şəkildə zalı tərk edirlər.

Parlamentin 19 fevral 1919-cu il tarixli iclasında Axalsıx qəzasında baş vermiş üsyan müzakirə obyekti olur. Deputatlardan P.Sağvarelidze, N.Xomeriki baş verən hadisələrdə yerli müsəlman əhalinin deyil, xarici qüvvələrin və bəylərin əli olduğunu söyləyərək, Axalsıx döyüşlərində gürcü ordusu ilə çiyin-çiyinə 250 yerli müsəlmanın son damla qanlarına qədər döyüşdüyünü, şəhəri də ən axırda elə onların tərk etdiyini deyirlər. Aparılan müzakirələrdə Ə.Şərif də söz alaraq adları çəkilən həmkarlarının sözlərini dəstəkləyir və baş verən hadisələrin günahını feodallarda görür: "Axalsıx hadisələrində günahı feodal ünsürlərdə görürük. Onlar həmişə bizim düşmənlərimiz olubdurlar. Ölkəni təhlükədən qorumaq üçün onlara qarşı şiddətli mübarizə aparmaq zəruridir".

1919-cu ilin 14-17 fevral tarixlərində bərabər və birbaşa seçki hüququ əsasında gizli və azad səsvermə yolu ilə keçirilmiş ümumxalq seçkiləri nəticəsində Gürcüstan Milli Şurasının transformasiyası əsasında yaranmış parlament fəaliyyətini dayandırır və ali qanunvericilik səlahiyyətini Gürcüstan Müəssislər Məclisinə ötürür.

Arxiv sənədlərindən və o dövrün mətbuat xəbərlərindən aydın olur ki, Müəssislər Məclisinə seçkilər zamanı Gürcüstan Sosial-Demokrat Fəhlə Partiyasının 14 yanvar 1919-cu il tarixində təsdiq olunmuş ilkin siyahısına 3 türk-müsəlmanın – 39-cu sırada Hüseynqulu (Söyünqulu) Məmməd oğlu Məmmədovun, 65-ci sırada Əbdüləziz Qurban oğlu Şərifovun və 119-cu sırada Əhməd Əli oğlu Məmmədovun adları salınmışdısa, sonradan müəyyən korrektələr edilir və siyahıda yalnız əslən Sığnax qəzasının Yor-Muğanlı kəndindən olan Hüseynqulu Məmmədovun adı saxlanılır.

Əziz Şərif 1919-cu ilin iyun ayında Borçalı qəzasının yerli özünüidarəetmə orqanlarına seçkilərə qatılaraq Gürcüstan Sosial-Demokrat Fəhlə Partiyasının və "Hümmət"in vahid siyahısı üzrə Borçalı dairəsindən qəza qlasnısı (deputatı) seçilir.

20-22 iyul 1919-cu il tarixlərində Yekaterinenfeld koloniyasında Borçalı qəza erobasının (yerli özünüidarəetmə orqanının) ilk iclası keçirilir. 24 qlasnının, GDR daxili işlər naziri P.Çiçinadzenin və Müəssislər Məclisinin üzvü E.Sirbiladzenin iştirak etdiyi toplantıda əvvəlcə qlasnıların təntənəli surətdə aşağıdakı məzmunda andiçmə mərasimi keçirilir:

"Mən, Borçalı qəzasının erobasının qlasnısı Gürcüstan Demokratik Respublikasının xalqı və hökuməti qarşısında öz müqəddəs vəzifəmi icra etməyə başlayaraq, ədalətlə milliyətindən asılı olmayaraq əhalinin və Respublikanın maraqlarına xidmət edərək bütün işlərimdə zəhmətkeş xalqın və öz vicdanımın səsini dinləməyə təntənəli şəkildə söz verirəm".

Toplantıda salamlama nitqi ilə daxili işlər naziri çıxış etdikdən sonra sayları 5 nəfər üzvdən ibarət "zemstvo uprava"sı (eroba idarəsi) formalaşdırılır; üzvlərdən ikisi – iqtisadi elmlər namizədi P.M. Kavkasidze və iqtisadi elmlər namizədi R.A. Ramişvili kənardan dəvət olunurlar, üçü isə – Ə.Q. Şərifov (Moskva Kommersiya İnstitutunun 4-cü kurs tələbəsi), N.S. Papandopulo (milliyətcə yunan, orta təhsilli xalq müəllimi) və E.İ. Kromer (milliyətcə alman, orta təhsilli) qlasnılar arasından seçilirlər. P.M. Kavkasidze upravanın sədri seçilir. İclasda upravanın sədrinə 2500 rubl, üzvlərinə isə 2250 rubl aylıq məvacib təyin olunur, həmçinin, uprava nəzdində 12 şöbə – inzibati, məhkəmə, aqronom, aqrar, maliyyə, statistika, mühasibatlıq, tibbi-sanitar, veterinar, xalq maarifi, ərzaq və texniki şöbələr təsis edilir. Əziz Şərifə xalq maarifi, tibbi-sanitar və veterinar şöbələr həvalə olunur. "Qafqaz şəhəri" jurnalının 1919-cu il 1 noyabr tarixli sayına istinadən təqdim etdiyimiz bu məlumatda Ə.Şərifin 1915-ci ildə qəbul olunduğu Moskva Kommersiya İnstitutunun 4-cü kurs tələbəsi olması barədə qeyd diqqəti çəkir. Bu qeyddən aşkar olur ki, Ə.Şərif Gürcüstanda yaşayaraq ictimai-siyasi fəaliyyətlə məşğul olmaqla bərabər ali təhsilini də qiyabi və kəsintisiz şəkildə davam etdirirdi.

"Qafqaz şəhəri"nin Borçalı üzrə bölgə müxbiri İ.Arselovun Yekaterinenfelddən verdiyi məlumatdan Ə.Şərifin Borçalı qəza erobasının upravasının təhsil, səhiyyə, baytarlıq sahələrinə məsul əməkdaşı kimi fəaliyyətinin məhsuldar olduğu aydınlaşır. İnzibati binasının olmaması səbəbindən upravanın faktiki olaraq avqust ayının ikinci yarısında fəaliyyətə başladığı, ancaq buna rəğmən qısa müddət ərzində çox iş gördüyü vurğulanan məlumatda, xüsusən də inzibati aparatın bütövlükdə yeniləndiyi, qəzaya həkimlər, feldşerlər, tibb bacıları və müəllimlərin dəvət edildiyi, bir neçə həkim, veterinar və feldşer məntəqəsinin açıldığı qeyd olunurdu.

Gürcüstan Sosial-Demokrat Fəhlə Partiyasının mərkəzi komitəsinin rusdilli "Bor-

ba" qəzetinin 23 dekabr 1919-cu il tarixli sayında "Gürcüstan "Hümmət" Partiyasının qurultayı" başlıqlı yazı dərc olunmuşdur. Yazıda 16 dekabr 1919-cu ildə Borçalı qəzasının Yekaterinenfeld alman koloniyasında Gürcüstan "Hümmət" Sosial-Demokrat Fəhlə Partiyasının (menşeviklər) ilk qurultayının keçirildiyi və qurultayın gündəliyinə aşağıdakı məsələlərin salındığı bildirilirdi:

- Bölgələrdən məruzələrin dinlənilməsi;
- Partiya təbliğatının gücləndirilməsi;
- Təşkilatın yeni özəklərinin yaradılması;
- Gürcüstan Sosial-Demokrat Fəhlə Partiyası ilə əlaqələr;
- Üzvlük və qəbul haqları;
- İanələrin yığımı;
- Partiyanın mərkəzi komitəsinə seçkilər;
- Cari məsələlər.

Qurultayda Əziz Şərif Gürcüstan "Hümmət" Sosial-Demokrat Fəhlə Partiyasının mərkəzi komitəsinin sədri, bolus-kəpənəkçili Molla İsa Molla Nəsib oğlu – sədr müavini, Ziyəddin Əfəndiyev – katibi, Məşədi Bala Aslan oğlu, Axlımahmudlu kəndindən Məmməd Hacı oğlu, Saraçlıdan Qurban Həsən oğlu və İ.

Aslan oğlu isə üzvləri seçilirlər.

Qeyd edək ki, Gürcüstan "Hümmət" Partiyasının mərkəzi komitəsində təmsil olunanlardan M. Hacı oğlu ilə M. B. Aslan oğlu Ə.Şəriflə birlikdə Borçalı dairəsindən, M. İ. Nəsib oğlu və Q. Həsən oğlu isə Yekaterinenfeld dairəsindən Borçalı qəza qlasnısı seçilmişdilər. Z. Əfəndiyevin adı isə Tiflis şəhər şurasına 2 fevral 1919-cu ildə keçirilmiş seçkilər zamanı Gürcüstan Sosial-Demokrat Fəhlə Partiyasının seçki siyahısında 90-cı sırada əks olunmuşdur.

Gürcüstan hümmətçi-menşeviklərinin ilk qurultayında partiyanın yeni seçilmiş mərkəzi komitəsinə Gürcüstan Sosial-Demokrat Fəhlə Partiyasının mərkəzi komitəsi ilə sıx əməkdaşlıq əlaqələri qurmaq həvalə olunur və növbəti qurultayın 1920-ci ilin yaz fəslinin sonunda çağırılması qərarlaşdırılır. Qurultay tərəfindən Gürcüstan Sosial-Demokrat Fəhlə Partiyasının mərkəzi komitəsinə, Gürcüstan Demokratik Respublikasının hökumətinin və Müəssislər Məclisinin sədrinə, Azərbaycan Parlamentinin "Hümmət" fraksiyasına və "Hümmət" Partiyasının Bakı komitəsinə, Ermənistan Sosial-Demokrat Partiyasının İrəvan komitəsinə qurultayın sədri Ə.Şərifov və katibi Z.Əfəndiyevin imzalarıyla salamlama teleqramları göndərilir. Azərbaycan hümmətçilərinə göndərilən teleqramda deyilirdi:

"Gürcüstan hümmətçilərinin Borçalıda toplanmış birinci qurultayı Azərbaycan proletariatı ideallar uğrunda mübarizə aparan şərəfli yoldaşları ürəkdən salamlayır. İnqilabın keşiyində duraraq öz xoşbəxt demokratiyalarını quran Bakı fəhlələrinə səmimi salamlarımızı çatdırmağı xahiş edirik".

Gürcüstan hökuməti və parlamentinə ünvanlanmış teleqram bu məzmunda idi:

"Gürcüstan "Hümmət" Partiyasının birinci qurultayı inqilab və vətəndaş azadlıqları beşiyi olan Gürcüstan Demokratik Respublikasını ürəkdən salamlayır. Bizim partiya Gürcüstan proletariatı ilə birgə Gürcüstan Respublikasının gücləndirilməsi üçün çalışacaqdır".

Azərbaycan sovet işğalına məruz qalandan bir neçə gün sonra, 1920-ci ilin may ayında Əziz Şərifin sədrliyi ilə Borçalı müsəlmanlarının qurultayı keçirilir. Qurultay iştirakçıları Ə.Şərifin imzası ilə Gürcüstan Respublikası hökumətinin sədrinə belə bir depeşa göndərir:

"Borçalı müsəlmanlarının qurultayı sizi – hüquq-bərabərlik bayrağını yüksəkdə tutan, respublikanın müstəqilliyini qapıda dayanmış düşməndən (bolşeviklərdən – F.V.-H.) qorunmasını əhd etmiş gürcü demokratiyasının rəhbərini salamlayır. Yaşasın Gürcüstan Respublikası".

Məlumdur ki, GDR 1921-ci ilin fevral ayında süqut etdikdən sonra Əziz Şərif vaxtilə Gürcüstan Milli Şurasında eyni kürsünü bölüşdüyü Əliheydər Qarayevin göstərişi ilə Gürcüstan Sosial-Demokrat Partiyası (menşeviklər) Mərkəzi Komitəsinin üzvü kimi həbs edilərək Bakıya gətirilmiş, lakin çox keçmədən N.Nərimanovun işə qarışması nəticəsində azadlığa buraxılmışdır. 1922-ci ilin yanvar ayında Naxçıvan Sovet Sosialist Respublikasının Gürcüstanda nümayəndəsi təyin edilmiş, 1925-1935-ci illərdə Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsində məsləhətçi vəzifəsini tutmuşdur. XX əsrin 20-30-cu illərdə Tiflisdə müxtəlif dövlət vəzifələri icra etməklə yanaşı, mətbuat və nəşriyyat sahəsində də çalışmışdır. 1943-cü ildə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunun tənqid bölməsini bitirmiş, 1950-1961-ci illərdə SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda və Dünya Ədəbiyyatı İnstitutunda baş elmi işçi olmuş, 1956-cı ildə "Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığı" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.



**Borçalı qəza "eroba"sının ilk toplantısının iştirakçıları (1919-cu il iyul). "Teatri da tsxovreba" dərgisinin 1919-cu il 12-ci sayında dərc olunaraq tarixin yaddaşına həkk olunmuş bu fotoşəkildə Borçalı "eroba" şurasının sədri Al.K. Korinteli, "eroba" idarəsinin sədri P.M.Kavkasidze və üzvləri Ə.Q. Şərifov, E.İ.Kromer, N.S. Papandopulo, R.A. Ramişvili, eləcə də toplantıya qatılan "eroba" deputatları əks olunmuşlar.**

1963-cü ildə Azərbaycanın Əməkdar Elm Xadimi fəxri adına layiq görülmüşdür. 1961-1988-ci illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin filologiya fakültəsində SSRİ xalqları ədəbiyyatı kafedrasının professoru vəzifəsində çalışmışdır. O, 1988-ci ildə Moskvada vəfat etmiş, Naxçıvanda dəfn olunmuşdur.

Tənqid, ədəbiyyatşünaslıq və bədii tərcümə sahəsində səmərəli fəaliyyət göstərən Ə. Şərif ilk gənclik illərində "Molla Nəsrəddin" jurnalının redaksiyasında işləmiş, həmin dövrdə görkəmli Azərbaycan şair və yazarlarından M.Ə.Sabir, Ə.Haqverdiyev, H.Cavid və Ə.Qəmküsarla yaxın dostluq əlaqələrində olmuş, ədəbi fəaliyyətə də "Molla Nəsrəddin"də dərc olunan "Naxçıvandan məktublar"ı ilə başlamışdır. Ə.Şərifin Ə.Haqverdiyevlə dostluq əlaqələri onların Gürcüstan Milli Şurasında – parlamentində həmkar olduqları zamandan etibarən daha da dərinləşir. Bu barədə o, xatirələrində yazırdı:

"...Tiflisdə müsəlman milli şurası həmin il (1918-ci il – F.V.-H.) 29 sentyabrda öz tərəfindən Gürcüstan parlamentinə dörd nəfər nümayəndə seçmişdi: Əbdürrəhim bəy Haqverdiyev, Əliheydər Qarayev, müəllim Mirzə Hüseyn Həsənzadə və mən. Bu vaxtdan etibarən ta Haqverdiyev Bakıya gedən günə qədər biz hər gün, ya günaşırı görüşür, danışır, dərdləşirdik. Nəticədə biz daha da yaxınlaşdıq... Mənim arxivimdə Tiflisdə K.Y.Zubalov adına xalq evi nəzdində türk dram cəmiyyətinin 1919-cu il üçün üzvlük bileti vardır. Mənim adıma yazılmış bu bileti türk dram cəmiyyəti idarə heyətinin sədri Ə.Haqverdiyev imzalamışdır".

Daha sonra Ə.Şərif yazırdı:

"Gündəliyimdə bu qarışıq və mürəkkəb dövr haqqında maraqlı qeydlər yox deyildir, lakin bu yazıdakı mövzuya dəxli olmadığı üçün onların üzərində dayanmaq istəmirəm".

Əziz Şərif, yuxarıda təqdim etdiyimiz məlumatlardan da göründüyü kimi, varlığını cəmi 33 ay sürdürə bilmiş Gürcüstan Demokratik Respublikasının ictimai-siyasi həyatında istər Gürcüstan parlamentinin üzvü və Borçalı qəzasının deputatı, istərsə də Gürcüstan "Hümmət" Sosial-Demokrat Partiyasının mərkəzi komitəsinin sədri kimi kifayət qədər aktiv rol oynasa da, çox güman ki, sovet siyasi-ideoloji konyunkturuna uyğun olaraq xatirələrində həmin tarixi dövrdəki fəaliyyəti və əlaqələri barədə heç nə açıqlamırdı.

*Fəxri VALEHOĞLU-HACILAR,*
*tarix elmləri doktoru,*
*Azərbaycan Respublikasının Gürcüstandakı*
*Səfirliyinin birinci katibi*
*(haciyevf@yahoo.com)*

# TBİLİSİDƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİYİ QEYD EDİLİB

Azərbaycanın Gürcüstandakı səfirliyi Respublika günü və Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) 100 illiyi münasibətilə rəsmi qəbul təşkil edib. AXC-nin Tbilisidə elan olunduğu indiki "Gənclər sarayı"nda keçirilən tədbirdə Gürcüstanın baş naziri Giorgi Kvirikaşvili, xarici işlər naziri Mixeil Canelidze, müdafiə naziri Levan İzoriya, Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov, SOCAR-ın Gürcüstan nümayəndəliyinin rəhbəri Mahir Məmmədov, Gürcüstan Parlamentinin deputatları Ruslan Hacıyev, Mahir Dərziyev, Savalan Mirzəyev, Marneuli rayon icra başçısı Temur Abazov, digər rəsmi şəxslər, diplomatik korpusun nümayəndələri və ictimaiyyət nümayəndələri iştirak edib. Mərasim Azərbaycan və Gürcüstanın dövlət himnlərinin ifa olunması ilə başlayıb.

Tədbirdə çıxış edən D.Həsənov Azərbaycan Xalq Cümhuriyyətinin yaranma, süqut etməsi tarixi və müasir Azərbaycanın



hər istiqamətdə əldə etdiyi böyük uğurlardan danışıb: "Azərbaycan və Gürcüstan azad və işıqlı gələcəyi olan və beynəlxalq arenada nüfuzlu ölkələrdir. Müstəqillik ən böyük sərvət və nailiyyətdir. Bundan sonra da iki dövlət müstəqil olaraq inkişaf edəcək. Bu yolda hər iki xalqa uğurlar diləyirəm".

Sonra çıxış edən G.Kvirikaşvili Azərbaycan xalqını Respublika günü və ilk respublikanın yaranmasının 100 illiyi münasibətilə təbrik edib. Baş nazir iki gün öncə Gürcüstanda Müstəqillik günü və ilk respublikanın yaranmasının 100 illiyinin qeyd olunduğunu xatırladıb.

G.Kvirikaşvili Gürcüstan və Azərbaycanın birgə həyata keçirdiyi strateji layihələrin region üçün əhəmiyyətindən danışaraq onların regionda sülh və əmin-amanlığa xidmət etdiyini qeyd edib.

Daha sonra simvolik olaraq Azərbaycan Xalq Cümhuriyyətinin müstəqillik aktı oxunub. Rəsmi qəbul konsert proqramı ilə davam etdirilib.



# İSLAM SEVGİ DİNİDİR

Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Bu yaxınlarda internetdə fələstinli bir qızın ağlayaraq danışdığı görüntüyü izlədim, içim sızıldadı. İstər istəməz gözlərimdən yaş gəldi. Atası yəhudilər tərəfindən şəhid edilmiş, özü isə günlərdir ac olan bu kiçik qızın görüntüsü bir daha insanlığın öldüyündən xəbər vermirmi?

Bu görüntü dünyada müsəlmanlara qarşı işlədilən vəhşiliklərdən sadəcə kiçik bir parçadır. Ancaq gəl gör ki, elə bir təbliğat aparılır ki, müsəlmanlar dünyada ən qəddar insanlarmış. İslamla heç bir əlaqəsi olmayan, sadəcə saqqal saxlamaqla və "Allahu əkbər" deməklə özlərini müsəlman kimi göstərərək İslama zərər vurmağa çalışanların üzündən İslam dinini terrorçu dini adlandırırlar.

Əslində isə İslam sevgiyə ən çox əhəmiyyət verən dindir. İslam mədəniyyəti sevgi mədəniyyətidir. Müsəlman cəmiyyəti də sevgi cəmiyyətidir. Çünki İslam sevgi olmadan imanı qəbul etməz. İnsanın varlıqla bütün əlaqələrini sevgiyə çevirərək yenidən qurar, insanın bütün davranış və əlaqələrində sevgini və rəhməti əks etdirməsini zəruri qılar. Fərd və cəmiyyət səviyyəsində sevgi və İslam əlaqəsinin ən gözəl təzahürü Səhabə dövründə ortaya çıxmışdır.

Daha sonrakı dövrlər isə bu qızıl çağa yaxınlıqları nisbətində sevginin aynası olmuşlar. Materializm və eqoizmin hakim olduğu zamanımızda isə müsəlmanlar, fərd və cəmiyyət olaraq sevgini ən mükəmməl şəkliylə yenidən öyrənərək və insanlığa öyrədərək, beləcə İslamın bütün insanlığa rəhmət olduğunu göstərmək kimi əhəmiyyətli bir öhdəçiliklə qarşı-qarşıyadırlar.

Bir müsəlman Yaradanı da, yaradılanı da sevər. Yaradandan ötrü yaradılanı sevdiyi kimi, yaradılandan ötrü də Yaradanı sevər. Bu sevgilər arasında bir təzad olmadığı kimi hər iki sevgi də bir-birini bəsləyər. Əhli həqiqət qatında Mövlanı sevmək Leylanı sevməkdir; Leylanı sevmək də Mövlanı sevməkdir. Çünki Xaliq məxluqunun sevilməsindən məmnun olar. Məxluqu sevən də istər istəməz Xaliqi də sevər. Bunun nəticəsində ortaya sevgi cəmiyyəti və sevgi mədəniyyəti çıxar.

İslamın müsəlmanlara öyrətdiyi sevgi bütün varlığı əhatə edən mütləq bir sevgidir. Mütləq rəhmət, mütləq şəfqət və mütləq təvazö bu sevginin meyvələridir. Varlıq deyincə əvvəl Allah, peyğəmbərlər, müsəlman və müsəlman olmayan digər insanlar, mələklər, heyvanlar və bitkilər ağıla gəlir. Bunların xaricində də varlıqlar vardır, amma xüsusi vurğu bu qruplar üzərindədir, çünki insanın bunlarla sıx əlaqəsi vardır.

Həzrəti Peyğəmbərin həyatına baxdığımızda da heç bir zaman din və millət fərqi qoymadan hər kəsə xoş rəftar bəsləmiş, müharibədə belə yaşıllığa, qocalara, uşaqlara toxunmağı qadağan etmişdir.

İslam dini hər bir dinə hörmətlə yanaşmışdır. Ancaq müsəlmanların bu mübarək ayda qətl olunması kimin terrorçu, kimin məsum olduğunu ortaya qoymurmu?

Sülh və əmin bir dünyada yaşamaq ümidi ilə...

# PREZİDENT AZƏRBAYCANLI TƏLƏBƏLƏRİ MÜKAFATLANDIRIB

İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetində etnik azlıqlardan ibarət olan tələbələr arasında Müstəqillik günü ilə bağlı elan olunmuş müsabiqənin qalibləri mükafatlandırılıb.

Mükafatlandırma mərasimində prezident Giorgi Marqvelaşvili iştirak edib. 23 nəfərin qalib olduğu müsabiqədə Gürcüstanın müxtəlif ali məktəblərində gürcü dilinin öyrənilməsi proqramı üzrə təhsil alan tələbələr iştirak edib. Layihənin məqsədi milli azlıqlardan olan tələbələrin ölkənin siyasi və sosial həyatına cəlb olunması, azadlıq və müstəqillik anlayışlarının dərk olunması və maariflәndirilmənin artırılması olub.



G. Marqvelaşvili tələbələri ilk respublikanın yaranmasının 100 illiyi münasibətilə təbrik edərək onları yubileylə bağlı təşkil olunacaq bayram tədbirlərində fəal iştirak etməyə çağırıb.

"Sizin hər biriniz etnik mənsubiyyətdən asılı olmayaraq vətənimizi gücləndirirsiniz. Siz ölkənin gələcəyini yaradanlardan olmalısınız", - deyə G. Marqvelaşvili bildirib.

Dövlət başçısı qeyd edib ki, Gürcüstan müxtəlif din və millətləri təmsil edən insanlarla daha da güclü olur.

"Gürcüstanın müstəqilliyini möhkəmləndirən və Gürcüstan bayrağını ucaldanlar arasında müxtəlif etnik mənsubiyyətə məxsus vətəndaşlar olub. Biz Gürcüstanın vətəndaşları və müxtəlif din və millətlərin olduğu ölkənin övladlarıyıq. Bu müxtəliflikə biz daha güclü olmuşuq. Bu çox vacib ənənəni qoruyub saxlayın", - deyə dövlət başçısı vurğulayıb.

# 2019-CU İLDƏN MÜƏLLİMLƏRİN PEŞƏKAR İNKİŞAFI ONLAYN KURSLAR VASİTƏSİ İLƏ ƏLÇATAN OLACAQ

"Minilliklərin çağırış fondu – Gürcüstan" müəllimlərə və məktəb direktorlarına müəllimlərin peşəkar inkişafı üçün peşəkar inkişaf layihəsi kursları təklif edir. Layihəni Müəllimlərin Milli Peşəkar İnkişaf Mərkəzi həyata keçirir.

2019-cu ildə Gürcüstanda ilk olaraq müəllimlər belə geniş miqyaslı layihəyə qoşulacaqlar və onlayn kurslar vasitəsilə peşəkar inkişaf etmək onlar üçün daha da əlçatan olacaq.

Məsafəli onlayn təlim kursları layihə tərəfindən işlənilmiş təlim modullarının bazasında hazırlanıb, ancaq formatdan dolayı daha çox innovasiya, aktiv və müasir institutları özündə birləşdirir ki, effektli və əlçatan peşəkar inkişaf modelinin yaradılmasına dəstək olsun.

Onlayn kurslar vasitəsilə pedaqoqlara imkan yaradılacaq ki, istədikləri vaxt və yerdə onlayn rejimdə təlimlər keçsinlər. Onlayn təlim müəllimlərə pedaqoji təcrübənin yaxşılaşdırılması ilə yanaşı texnologiyalardan istifadə bacarığının inkişafında da kömək edəcək.

Kursların işlənilməsi 2019-cu ilin aprel ayında başa çatacaq və hər bir maraqlanan müəllim üçün bütün Gürcüstan miqyasında əlçatan olacaq.

Hal-hazırda müəllimlər pilot proqramına qoşulublar və proqram https://curriculu.me/ veb-səhifədə əlçatandır.

Müəllimlərin peşəkar inkişafının onlayn kursları ümum peşəkar, eləcə də fənn üzrə (fizika, kimya, biologiya, riyaziyyat, coğrafiya, ingilis dili) modullardan ibarətdir.

Canlı kursları onlayn formatda Qivi Zaldastanişvili adına Amerika Akademiyası həyata keçirir.

# GÜRCÜSTANDA 82 AZƏRBAYCAN MƏKTƏBİ VAR

Gürcüstanın Etniklik və Multikulturalizm Araşdırmaları Mərkəzi (CSEM) tərəfindən hazırlanmış interaktiv xəritəyə əsasən, Gürcüstanda 82 Azərbaycan məktəbi fəaliyyət göstərir. Azərbaycan məktəblərində təhsil alan şagirdlərin sayı 15 597 nəfər təşkil edir. Gürcü-Azərbaycan bölmələrinin olduğu məktəblərin sayı isə 29-dur.

Xəritəyə əsasən, Gürcüstanda 115 erməni dilli məktəb var. Həmin məktəblərdə 12 657 şagird təhsil alır.

Etniklik və Multikulturalizm Araşdırmaları Mərkəzindən (CSEM) bildirilib ki, xəritəyə daxil edilmiş məktəblərin sayı ilə bağlı göstəricilər 2017-2018-ci dərs ilini əhatə edir və onlar Gürcüstan Təhsil və Elm Nazirliyinin rəsmi məlumatına əsaslanıb.

Qeyd edək ki, 2008-2009-cu tədris ilində Gürcüstanda 124 Azərbaycan məktəbinin olduğu barədə məlumatlar yayılıb.

# QARDABANİDƏ MƏKTƏBƏ HAZIRLIQ MƏRKƏZİ FƏALİYYƏTƏ BAŞLADI

Qardabani şəhərində məktəbə hazırlıq mərkəzi açılıb. Mərkəz şənbə-bazar günləri, saat 10:00-dan 13:00-a kimi çalışacaq. Yeni təhsil mərkəzinin açılış mərasimində Qardabani merinin öhdəliyini yerinə yetirən Revaz Eqadze də iştirak edib.

Layihənin məqsədi oyun pedaqogikasının prinsipi ilə uşaqlarda idrak bacarığının, diqqəti toplamaq, məntiqi düşüncə və dərketmənin inkişafına dəstək olmaqdır.

Bu, Qardabani şəhərində ilk hazırlıq mərkəzidir. Mərkəzdə uşaqlara məktəb üçün lazımi bacarıqları inkişaf etdirmək imkanı verilir. Mərkəzdə uşaqlarla iki nəfər kvalifikasiyalı pedaqoq çalışacaq. Qeyd etmək lazımdır ki, onlar ixtisasca psixoloqdurlar və uşaqlarla çalışmaqda uzun illərin təcrübəsinə malikdirlər.

Layihə "Ailədə zorakılığın aradan qaldırılması ilə, qadın və qızların gücləndirilməsi ilə Gürcüstanın daha yaxşı gələcəyi üçün birləşək" çərçivəsində "İnnovasiyalar və Reformalar Mərkəzi"nin yardımı və Avropa İttifaqının maliyyə dəstəyi ilə həyata keçirilir.

## KETEVAN TSIXELAŞVİLİ: "BİRLİKDƏ BÜTÜN RƏNGARƏNGLİYİMİZLƏ ÖLKƏMİZİN İNKİŞAFININ VƏ İQTİSADİ İRƏLİLƏYİŞİN QAYĞISINA QALACAĞIMIZ ÖLKƏ QURMALIYIQ"



Tbilisidə, Karvasla qalereyasında mədəni rəngarənglik günü qeyd olunub. Tədbirdə barış və vətəndaş məsələləri üzrə Gürcüstanın dövlət naziri Ketevan Tsixelaşvili və mədəniyyət və idman naziri Mixeil Qiorqadze də iştirak ediblər.

Tədbirdə həmin günə həsr olunmuş konsert baş tutub. Gürcüstanda yaşayan etnik azlıqların yaradıcı qrupları musiqi nömrələri ilə çıxış ediblər. Gürcü mədəniyyətindəki xüsusi roluna görə "incəsənət xorumu" adı ilə yazıçı Qivi Şaxnazari mükafatlandırılıb. Tədbirdə etnik azlıqlara məxsus olan ənənvi yeməklər də təqim olunub.

Dövlət naziri Ketevan Tsixelaşvili qonaqlara təşəkkür edərək bildirib ki, dünya mədəniyyəti rəngarəngliyi günü dialoq və inkişaf üçündür.

"Hər bir vətəndaşın bərabər inkişaf etməsi üçün imkan olan bir ölkədə yaşayırıq. Etnik mənşəyinə baxmayaraq hər bir vətəndaş bərabərdir və onlara ictimai həyatın müxtəlif sahələrinə qoşulmaq üçün bərabər imkan verilir.

Birlikdə bütün rəngarəngliyimizlə ölkəmizin inkişafının və iqtisadi irəliləyişin qayğısına qalacağımız ölkə qurmalıyıq. Bu, bizim bu gün abxazlar və osetinlərə göndərdiyimiz mesajdır.

Bilirsiniz ki, vətənimiz bu il ilk respublika olaraq elan olunmağının 100 illik yubileyini qeyd edir. Qürurla qeyd etmək istəyirəm ki, ilk repsublikanın əsasını qoyan toplantı etnik baxımdan rəngarəng olub. Demək olar ki, bizim ölkənin ilk nümayəndəlik orqanı o dövrdəki Gürcüstanın təsviri idi. Vətəndaş bərabərliyindən, tolerantlıqdan və rəngarəngliklədən danışanda bilməliyik ki, bunun kökü hələ bir əsr əvvəl var idi və biz bu gün məhz həmin yolu davam etdiririk", – deyə Ketevan Tsixelaşvili bildirib.

Tədbir Barış və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət Naziri Aparatının, Mədəniyyət və İdman Nazirliyinin təşkilatçılığı və beynəlxalq təşkilatlar UNAG və USAİD-in dəstəyi ilə keçirilib.

Qeyd edək ki, 2001-ci ildə BMT-nin Baş Assambleyası mədəni rəngarəngliyin inkişafına dair ümumi qətnamə hazrılayıb. Onun əsasında da "Dialoq və inkişaf üçün dünya mədəniyyəti rəngarəngliyi günü" 2002-ci ilin 21 mart tarixindən hər il qeyd olunur.

## MAIA TSKITİŞVİLİ: HANSI LAYİHƏNİN PRİORİTETLİ OLDUĞUNU REGIONLARDAN DİNLƏMƏYİMİZ VACİBDİR



Gürcüstanın Regional İnkişaf və İnfrastruktur Nazirliyində regionların iqtisadi-sosial inkişafı, planlaşdırılan reformalar və infrastruktur layihələri haqqında müzakirə aparılıb.

Görüşdə regional inkişaf və infrastruktur naziri Maia Tskitişvili, nazir müavini İlia Beqiaşvili və bölgə qubernatorları iştirak ediblər.

Görüşdə nazir regionlarda həyata keçiriləcək layihələr fondundan maliyyələşən işlər haqqında söhbət aparıb və qeyd edib ki, bu istiqamətdə regionlara daha çox inkişaf etmək imkanı yaradacaq reforma planlaşdırılır.

"Vacibdir ki, hər şəhərdə və kənddə hansı növ layihələrin həyata keçirilməsini, əhalinin hansı ilkin ehtiyaclarının olmasını sizdən dinləyək. Yaxşı nəticə əldə etmək və məbləğin məqsədyönlü şəkildə xərclənməsi üçün nəyi, harada, hansı müddətə və niyə edəcəyimizi bilməliyik. Ona görə də planlaşdırma zamanı məhz sizin təqdim etdiyiniz prioritetləri nəzərə alacağıq", – deyə Maia Tskitişvili bildirib.

Nazir yerində mövcud olan vəziyyət və problemlərlə bağlı qubernatorlardan məlumat alıb və onların təkliflərini dinləyib.

Görüşdə həmçinin sağlam həyat tərzinə dəstək olmaqla bağlı Gürcüstanın baş naziri Giorgi Kvirikaşvilinin təşəbbüsü haqqında da söhbət aparılıb. Bunun üçün müvafiq infrastrukturun qurulması və bu istiqamətdə addımlar atılması vacibdir.

## YUXARI SARALDA BƏRPADAN SONRA MƏKTƏBİN AÇILIŞI OLUB



Marneuli bələdiyyəsinin Yuxarı Saral kəndində əsaslı təmir olunmuş məktəbin açılışı baş tutub.

Məktəbin açılış mərasimində Kvemo Kartli qubernatorunun müavini Zaur Darğallı, Marneuli bələdiyyəsinin meri Temur Abazov, onun birinci müavini Zaur Tabatadze, sakrebulonun sədri Amiran Giorqadze, sakrebulo sədrinin müavini Mamuka Naveriani, Yaponiyanın Gürcüstandakı səfiri Tadaharu Uehara, Marneulinin Demokrat Qadınlar İttifaqının sədri Olqa Endeladze, müəllimlər, məktəb şagirdləri və valideynlər iştirak ediblər.

Məktəbin açılış mərasimindən sonra bələdiyyənin rəhbər şəxsləri Yaponiya rəsmiləri ilə birlikdə məktəbin binasını və layihəni əks etdirən rəsmləri gözdən keçiriblər.

Qeyd etmək lazımdır ki, məktəb binası "Qrasrutların qrant proqramı" çərçivəsində həyata keçirilir. Proqram nəznində sözü gedən məkəb binasının bərpası üçün Yaponiya səfirliyi 82 675 dollar ayırıb.

Yaponiya səfirliyi və Demokrat Qadınlar İttifaqı arasında layihənin qrant müqaviləsi 2017-ci il, martın 2-də imzalanıb.

Sözü gedən layihə özünüidarəetmə ilə sıx əməkdaşlıq nəticəsində həyata keçirilir.

Qeyd edək ki, "Qrasrutların qrant proqramı" nisbətən kiçik miqyaslı layihələrə yardım edir. Məqsədi isə təhsil və mədəniyyət sahəsinə dəstək, Gürcüstan əhalisinin yaşam səviyyəsinin yaxşılaşdırılmasıdır.

Qrant proqramı ictimai səhiyyə, təhsil, sosial müdafiə, kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi, kasıbçılıqla mübarizə və mədəniyyət sahələrində həyata keçirilir. 1998-ci ildən bu günədək proqram çərçivəsində Gürcüstanda 163 layihə maliyyələşdirilib.

## QARDABANİ BƏLƏDİYYƏSİNİN 5 KƏNDİNDƏ 24 SAATLIQ SU TƏCHİZATI LAYİHƏSİNİN BİRİNCİ MƏRHƏLƏSİ SONA YAXINLAŞIR



Qardabani bələdiyyəsində Qardabani kəndlərinin su təchizatı sisteminin yenilənməsi və reabilitasiyasının ikinci fazasının təbii və sosial mühitə təsirinin idarə olunması planı və sosial hesabatın müzakirəsi baş tutub. Görüşdə Martğopi, Norio, Vaziani, Axalsopeli və Axali Samqorinin əhalisi, yerli özünüidarəetmə nümayəndələri iştirak ediblər.

Qardabani bələdiyyəsinin 5 kəndində 24 saatlıq su təchizatı layihəsinin birinci mərhələsi sona yaxınlaşır. İkinci mərhələdə Qardabani bələdiyyəsinin 5 kəndinin su təchizatı sisteminin yenilənməsi və bərpası nəzərdə tutulur.

Layihə Munisipal İnkişaf Fondu tərəfindən İkinci Regional və Munisipal İnfrastrukturun İnkişafı Proqramı (SRMIDP) çərçivəsində Dünya Bankının dəstəyi ilə həyata keçirilir.

## QARDABANİ BƏLƏDİYYƏSİNİN DÖRD KƏNDİNDƏ YOLLARA ASFALT ÇƏKİLİR

Qardabani bələdiyyəsinin Candar, Vaxtanqisi, Kosalı və Nəzərli kəndlərinin yollarına asfalt qatının çəkilməsi üçün işlər başlayıb. İşləri tenderdə qalib gələn "Skinçi" şirkəti həyata keçirir.

Layihəyə əsasən ümumilikdə 15 km-ə qədər yol örtüyünə asfalt qatı çəkiləcək. Yolların bərpa işləri yerli büdcənin maliyyəsi ilə həyata keçirilir və dəyəri 1 356 903 larini təşkil edir. Müqaviləyə əsasən şirkətin işləri yerinə yetirmək üçün 70 gün müddəti var.

İşlərə Qardabani meriyasının İnfrastruktur, Tikinti və Sahə Quruculuğu Xidməti nəzarət edir. Texniki nəzarəti isə meriya tərəfindən seçilmiş, bu sahədə səriştəsi olan "Optimalqrup+" şirkəti yerinə yetirir.

## ERA TEATRI BOLNİSİDƏ TAMAŞA GÖSTƏRİB

Era Teatrı Bolnisi kitbxanasının zalında "Məni bağışla" adlı tamaşa nümayiş etdirib. Gənc aktyorlar – Rabil İsmayılov, Leyla Əkbərova, Məndər Sərdarov və Ləman Məmmədova gürcü dilində bir ailənin timsalında erkən evliliyin zərərli nəticələrini, sosial problemləri və gender məsələlərini tamaşaçılara çatdırmağa çalışıblar. Tamaşanın nümayişi gender bərabərliyinin fəaliyyət planı çərçivəsində baş tutub.

"Biz etnik truppa deyilik, əksinə düşünürük ki, gələcəkdə bacarığını göstərmək istəyən bütün gənclər bizə qoşula bilər. Tamaşanı başqa dillərdə də oynayacağıq. Bolnisiyə bələdiyyənin dəstəyi ilə gəlmişik. "Məni bağışla" tamaşası isə gender məsələsinə aiddir. Təəssüf ki, Qafqazda, həmçinin Türkiyənin bir çox regionlarında hələ də ailə üçün qızın dünyaya gəlməsi problemdir. Oğlana isə bütün həyatlarını həsr edirlər. Ancaq çox hallarda valideynlərə qızlar sahib çıxır. Tamaşa ilə məhz bunu demək istəyirdik ki, övlad elə övladdır", – deyə Era Teatrının bədii rəhbəri və tamaşanın rejissoru Anar Rafiqoğlu bildirib.

"Bələdiyyənin gender bərabərliyi üzrə tədbirlərin fəaliyyət planının əsas məqsədlərindən biri məhz bu kimi məsələlərlə bağlı əhalini məlumatlandırmaqdır. Düşünürəm, gənc aktyorların məharətlə oynadığı "Məni bağışla" tamaşası cəmiyyətə gender bərabərliyinin vacib olduğunu və erkən evliliyin mənfi tərəflərini göstərdi", – Bolnisi bələdiyyəsinin gender məsələləri üzrə mer müavini Pati Tvildiani bildirib.

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

Yeni YOL

31 MAY 2018-ci İL
№008 (68)

## GÜRCÜSTAN VƏTƏNDAŞLIĞININ İSTİSNA QAYDADA VERİLMƏSİ ÜÇÜN PREZİDENTƏ MÜRACİƏT EDİLMƏYƏCƏK



Gürcüstan vətəndaşlığının verilməsi işində prezidentin səlahiyyəti dəyişir. "Vətəndaşlıq haqqında" qanunda planlaşdırılan yeniliklərə əsasən, prezidentin vətəndaşlıq məsələsinin müzakirəsi ilə bağlı bəzi məsələləri tənzimləmək səlahiyyəti olmayacaq. Dəyişikliklərdən birinə əsasən istisna qaydada nəzərdə tutulmuş halda şəxs Gürcüstan vətəndaşlığının verilməsi haqqında ərizəni prezidentə təqdim etməyəcək. Dəyişikliklərə əsasən istisna qaydada vətəndaşlığın verilməsinə dair ərizə agentliyə, xaricdə diplomatik nümayəndəliyə və ya konsulluğa təqdim olunacaq.

Bundan əlavə, vətəndaşlığın verilməsi, dayandırılması, itirilməsi qaydaları, həmçinin Gürcüstanın fəxri vətəndaşlığının verilmə qaydası prezidentin sərəncamı əvəzinə vətəndaşlıq məsələləri üzrə komissiyanın sərəncamı ilə müəyyən ediləcək.

"Vətəndaşlıq haqqında" qanunda planlaşdırılmış dəyişikliklər layihəsi təşəbbüs üçün hazırdır. Layihə Parlament bürosuna yaxın iclasda təqdim olunacaq. Qanunda planlaşdırılan dəyişikliklər Parlamentin hüquqi məsələlər üzrə komitəsi tərəfindən hazırlanıb.

## GÜRCÜSTANDA XUDU BORÇALININ HEYKƏLİ UCALDILACAQ



Gürcüstanda azərbaycanlı xalq qəhrəmanı Xudu Borçalının heykəlinin ucaldılması ilə bağlı müzakirələr davam etdirilir. Bu barədə Gürcüstanın mədəniyyət və idman nazirinin müşaviri Giorgi Qeqeçkori bildirib.

O deyib ki, abidə layihəsi ilə bağlı bir sıra müzakirələr aparılıb: "Abidənin müəllifi tanınmış gürcü heykəltaraşı Georgi Jğentidir. Layihəyə əsasən Xudu Borçalının heykəlinin arxasında Gürcüstan uğrunda canlarından keçmiş azərbaycanlıların soyadlarının yazılacağı lövhə olacaq".

G. Qeqeçkori Xudu Borçalıya həsr olunmuş abidə kompleksinin yaxın gələcəkdə açılışının olacağına ümid etdiyini qeyd edib.

## YANVAR-APREL AYLARINDA GÜRCÜSTANIN TURİZMDƏN ƏLDƏ ETDİYİ GƏLİR 800 MİLYON DOLLAR TƏŞKİL EDİB

Gürcüstanın bu ilin yanvar-aprel aylarında turizmdən əldə etdiyi gəlir 800 milyon dollar təşkil edib.

Gürcüstan Milli Bankının məlumatına əsasən, hesabat dövründə ən çox gəlir 239 milyon dollar olmaqla aprel ayının payına düşüb. Bu məbləğ ötən ilin aprel ayının göstəricisi ilə müqayisədə 27,8% çoxdur.

Qeyd edək ki, bu ilin ilk dörd ayı ərzində ölkəyə 2 060 264 nəfər əcnəbi ziyarətçi səfər edib ki, onların 937 370 nəfərini turistlər təşkil edib.



## TBİLİSİDƏ PİYADA PATRULLAR FƏALİYYƏTƏ BAŞLAYIB



Daxili İşlər Nazirliyinin verdiyi məlumata əsasən, patrul polisi islahatlarının yeni mərhələsi çərçivəsində Tbilisinin mərkəzi və əhalinin çox olduğu küçələrində piyada patrul korpusu fəaliyyətə başlayıb. Əsas məqsəd Gürcüstan vətəndaşları və turistlər üçün təhlükəsiz və rahat şəraitin yaradılmasıdır.

DİN-in məlumatına əsasən, piyada patrullar müasir polis ləvazimatları, həmçinin videokameralarla təchiz olunub.

## NOYABRIN BİRİNDƏN QEYDİYYATDAN KEÇMƏDƏN TAKSİ XİDMƏTİ GÖSTƏRƏNLƏR CƏRİMƏLƏNƏCƏKLƏR




Tbilisidə taksilərin qeydiyyat-icazəsi prosesi avqust ayından noyabr ayına kimi olan dövrdə baş tutacaq. Bu haqda Tbilisi merinin müavini Maia Bitadze bildirib.

Onun sözlərinə görə, təxmini olaraq 1 noyabr tarixindən artıq qeydiyyatdan keçməmiş taksi xidməti göstərmək icazəsiz iş olaraq hesab olunacaq və 200 lari dəyərində məbləğlə cərimələnəcək.

## QARDABANİ SAKİNİ AVROPA ÇEMPİONU OLDU



Afinada başa çatan Avropa çempionatında gürcü samboçuları uğurla çıxış ediblər. Gürcüstana qızıl medallardan birini Qardabani sakini Davit Loriaşvili qazandırıb. O, finalda Moldovalı Denis Taçini 5:0 hesabı ilə məğlub edərək Avropa çempionu olub.

Qeyd edək ki, Loriaşvili Avropa çempionu titulunu artıq üçüncü dəfədir qazanır.

## GÜRCÜSTANDA ƏN ÇOX YAYILMIŞ SOYADLARIN 20-Yİ AÇIQLANIB

Gürcüstan Ədliyyə Nazirliyinin Dövlət Xidmətlərinin İnkişafı Agentliyi ölkədə ən çox yayılmış soyadların 20-liyini açıqlayıb. Siyahıda 3 azərbaycanlı soyadı yer alıb.

Siyahıya əsasən, Məmmədov ən geniş yayılmış 2-ci soyaddır. Bu soyadı 28 081 nəfər daşıyır. Əliyev soyadı isə 19 094 nəfərlə 4-cü yerdədir. Hüseynov ən geniş yayılmış 15-ci soyaddır ki, bu soyadı daşıyanların sayı 10 831 nəfər təşkil edir.

Gürcüstanda ən çox yayılmış soyad isə Beridzedir. Bu soyadı 29 068 nəfər daşıyır.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər Musaoğlu
Yayım Direktoru: Hacı Bəkiroğlu
Qrafik dizayn: Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlelik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.